KREDO

№ 49-50 (1227-1228) 24 avqust 2024-cü il

# Hələ neçə dəfə doğulacağam



Unudulmaz, bənzərsiz və istedadli şair Əli Kərimin vəfatindan 55 il ötdü. Bu illər ərzində əsərləri təkrar -təkrar nəşr olundu, yubileyləri keçirildi. Hələ də Əli kərim şerinin yanğiçilari öz doyumsuz-luqlarını bəyan etməkdədir, o, təkrar-təkrar olunmaq-dadır. Hər oxunuşda onun poetik özgörümlüyünün yeni-yeni ilmələri gözlərimiz önündə açılmaqdadır. Deməк Əlini dönə -dönə oxumağa, onun poetik dünyasının yeni -yeni qatları ilə tanışlığa ehtiyac duyulur. Vaxtı ilə şairin iki cildliyi haqqında öz təəssüratlatını "Ulduz"jurnalında oxucularla bölüşən xalq şairi Cabir Novruz da bu faktı xüsusi şəkildə vurğulamışdır.Elə bunun nəticəsidir ki şairin yaradıcılığı haqqında əsərlər yazılmış,kitablar çap edilmişdir.Ona həsr olunan şeirlərin isə sayı bilinməzdir.İsrarla qeyd edə bilərik ki,onun yaşıdları olan şairlərin heç biri barədə Əli Kərim haqqında yazılanlar sayda şeir yazılmamışdır.Göyçay Rayon İcra Hakimiyyəti və bakıdakı "İctimai Birlik"təşkilatının birgə Layihəsi əsasında Göyçay rayon Heydər Əliyev mərkəzində təşkil edilmiş Əli Kərimin vəfatının 55 illiyinə həsr olunmuş ədəbi-bədii tədbir də əslində şairin unudulmaz xatirəsinə bir tövhə kimi gerçəkləşdi.

Tədbir iştiraçılarından bir qrupu ilk öncə şairin məzarını ziyarət etdi.Tədbirin aparıcısı "İctimai Birlik"təşkilatının nümayəndəsi Jalə Cəfərova açılış üçün ilk sözü rayon İH başçısının müavini Zivər Zeynalovaya verdi.Zivər xanım şairin yaradıcılığına yığcam ekskursiv məlumatla müraciət edərək onu bütün zamanların şairi kimi səciyyələndirdi.Öz çıxışını şairin poetik kəşfləri üzərində quran "Göyçay"qəzetinin redaktoru, şair -publisist Adil Məmməd şairin yaradıcılığından çoxlu sayda getirdiyi şeir nümunələrinə orijinal bir üslubda şərh verməklə dinləyicilərin alqışı ilə qarşılandı.tanınmış publisist Məzahir Əhmədoğlu və rejissor Əhliman Qafarov isə öz çıxışlarını rayonda Əli Kərim adına "Poeziya"klubunun yaradılması və şairin dəfninin tarixçəsi,təsviri üzərində qurdular.İstedadli və tanınmış rəssam Ehtiram Kərimovun şairin yaxın qohumu Vaqif həkimə şairin portretini təqdim etməsi isə gurultulu alqışlarla qarşılandı.Tədbirə daha çox xüsusi ovqatı məktəbli kiçik yaşlı bacı -qardaşın -Dəniz və Murad Aydınovların birgə söylədikləri "Qaytar ana borcunu"şeiri qatdı.

Tədbirdə şairin digər şerləri də səsləndirildi.Eləcə də Əli Kərim obrazında səhnəyə daxil olan Ağakişiyev Əlsafanın qiraəti də rəğbətlə qarşılandı.Şairin sesinin səsləndirilməsi tədbir iştirakçılarına qeyri-adi bir yaşantı bəxş etdi.Eləcə də müğənni Fərid Nəbiyev şairin sozlərinə bəstələnmiş mahnıları ifa etdi.

Tədbirdə şair Aqil Kəngərli Əli Kərim poeziyasına şəxsi münasibətini bildirdi, şair Qalib Nuri isə şairə həsr etdiyi şerini oxudu.

Xatırladaq ki tədbir şəhidlərin anilmasi ilə açılmış,şəhid anası Adilə xanım və qazi Rövşən Əhmədov çıxış etmişlər.

Tədbirdə bir qrup iştirakçıya mükafat təqdim olunmusdur.

Tədbirin əvvəldən sonadək ötən aurası şairin "Hələ neçə dəfə doğulacağam" fikri üzərində köklənmişdir.Sairin öz səsində"Həmişə səfərdə "şerinin səsləndirilməsi onun əbədiyaşarlığını bir daha təsdiq etdi.

Tədbirin sonunda Əli Kərimin əzizi Vaqif həkim ailə üzvləri adından hər kəsə minnətdarlığını bildirdi.

**Əkbər Əlioğlu.**
**02.08.2024**

“REDAKSİYA HEYƏTİ

Əli Rza Xələfli
*baş redaktor*
*(www.elirzaxelefli.net)*

Asif Rüstəmli
Ağarəhim Rəhimov
Baba Babayev
Bədirxan Başkeçidli
Cahid İsmayıloğlu
Elçin Kamal
Elçin Tanrıdağ (İsgəndərzadə)
Firuz Mustafa
Hafiz Rüstəm
Hüseynbala Mirələmov
İsa Həbibbəyli
Gülşən Əliyeva Kəngərli
Gülxani Pənah
Qəzənfər Kazımov
Qəzənfər Paşayev
Qurban Bayramov
Mahmud Allahmanlı
Nizaməddin Şəmsizadə
Nizami Cəfərov
Nizami Məmmədov
Paşa Qəlbinur
Salatın Əhmədli
Sevindik Nəsiboğlu
Şəddat Cəfərov
Tahirə Həsənzadə
Təyyar Salamoğlu
Vaqif Yusifli
Xanəli Kərimli
Yusif Nəğməkar